# KİMYƏVİ BİRLƏŞMƏDƏ SİQMA (σ) RABİTƏ SAYLARININ RİYAZI HESABLANMA METODİKASI

**M.M. Abbasov,**
*Pedaqoji elmlər doktoru*

**Z.S. Abbasov**
*Dissertant*

Kimyəvi birləşmələrdə ümumi rabitə saylarının riyazi üsulla hesablanması barədə əvvəlki məqalələrimizdə məlumat vermişdik [1-5].

Məlumdur ki, müasir dövrə qədər kimyəvi birləşmələrdə rabitə saylarının hesablanması qrafik formullar vasitəsi ilə həyata keçirilir. Sadə formullardan fərqli olaraq bəzi mürəkkəb maddələrin qrafik formullarının tərtib olunması xeyli çətinliklər törədir.

Bu problemin həlli yolunda aparılan tədqiqatlar uğurlu nəticə verdi və bütün kimyəvi birləşmələrdə siqma *(σ)* rabitə saylarının qrafik formullarından istifadə etmədən bir düstur vasitəsi ilə hesablanması mümkün oldu.

$$A_{(\sigma)} = N_{(üm)} + S - 1$$

Burada, $A_{(\sigma)}$ – kimyəvi birləşmələrdə siqma *(σ)* rabitələrin ümumi sayı, $N_{(üm.)}$– atomların ümumi sayı, *S* - tsiklik (qapalı) saydır.

Üzvi birləşmələrin müxtəlif siniflərində siqma *(σ)* rabitə saylarının hesablanmasını nəzərdən keçirək.

1. Aromatik karbohidrogenlərdə siqma *(σ)* rabitə saylarının qrafik formullarından istifadə etmədən riyazi üsulla hesablanması aşağıda verilmişdir.

$$A_{(\sigma)[C_nH_{2n-6}]} = N_{(üm.)} + S - 1 = 3n - 6 + 1 - 1 = 3n - 6$$

Naftalin ($C_{10}H_8$) və antrasen ($C_{14}H_{10}$) molekullarında siqma *(σ)* rabitə saylarını hesablayaq. Məlumdur ki, naftalin molekulunda tsikilk (qapalı) say ikiyə, antrasendə isə üçə bərabərdir.

$$A_{(\sigma)[C_{10}H_8]} = N_{(üm.)} + S - 1 = 18 + 2 - 1 = 19$$

$$A_{(\sigma)[C_{14}H_{10}]} = N_{(üm.)} + S - 1 = 24 + 3 - 1 = 26$$



naftalin



antrasen

Riyazi hesablamaların dəqiqliyi qrafik formullarda öz əksini tapmışdır.

2. Spirt molekullarında siqma *(σ)* rabitə saylarının hesablanmasını nəzərdən keçirək.

a) Doymuş biratomlu alifatik spirtlər:

$$A_{(\sigma)[C_nH_{2n+1}OH]} = N_{(üm.)} + S - 1 = 3n + 3 + 0 - 1 = 3n + 2$$

b) Doymuş ikiatomlu spirtlər:

$$A_{(\sigma)[C_nH_{2n}(OH)_2]} = N_{(üm.)} + S - 1 = 3n + 4 + 0 - 1 = 3n + 3$$

c) Doymuş üçatomlu spirtlər:

$$A_{(\sigma)[C_nH_{2n-1}(OH)_3]} = 3n + 5 + 0 - 1 = 3n + 4$$

d) Aromatik benzil spirti:

$$A_{(\sigma)[C_6H_5CH_2OH]} = N_{(üm.)} + S - 1 = 16 + 1 - 1 = 16$$

3. Doymuş alifatik aldehidlər:

$$A_{(\sigma)[C_nH_{2n}O]} = N_{(üm.)} + S - 1 = 3n + 1 + 0 - 1 = 3n$$

4. Doymuş alifatik karbon turşuları:

$$A_{(\sigma)[C_nH_{2n}O_2]} = N_{(üm.)} + S - 1 = 3n + 2 + 0 - 1 = 3n + 1$$

5. Yağ molekulunda siqma *(σ)* rabitə saylarının hesablanmasını nəzərdən keçirək.

$$A_{(\sigma)\left[\begin{array}{l} CH_2OCOC_{17}H_{35} \\ | \\ CHOCOC_{17}H_{33} \\ | \\ CH_2OCOC_{17}H_{31} \end{array}\right]} = N_{(üm.)} + S - 1 = 167 + 0 - 1 = 166$$



6. Tsiklik (qapalı) sayı ikiyə bərabər olan saxaroza məhlulunda siqma *(σ)* rabitə saylarının hesablanması.

$$A_{(\sigma)[C_{12}H_{22}O_{11}]} = N_{(üm.)} + S - 1 = 45 + 2 - 1 = 46$$



7. 6-amin heksan turşusunda siqma *(σ)* rabitə saylarının hesablanması aşağıda verilmişdir.

$$A_{(\sigma)[H_2N(CH_2)_5COOH]} = N_{(üm.)} + S - 1 = 22 + 0 - 1 = 21$$



6-amin heksan turşusu, saxaroza və yağ molekullarında siqma *(σ)* rabitə saylarının riyazi hesablamadan alınan nəticələrinin qrafik formullardakı siqma *(σ)* rabitə sayları ilə üst-üstə düşməsi riyazi hesablamanın dəqiqliyini bir daha sübut edir.

Qeyri-üzvi birləşmələrdə siqma *(σ)* rabitə saylarının riyazi hesablaması.

$$A_{(\sigma)[\mathrm{Al_2(SO_4)_3}]} = N_{(üm.)} + S - 1 = 17 + 2 - 1 = 18$$



$$A_{(\sigma)[\mathrm{H_4P_2O_7}]} = N_{(üm.)} + S - 1 = 13 + 0 - 1 = 12$$



Riyazi hesablamalardan alınan nəticələrin qrafik formulada təsdiqini tapması ilk dəfə təklif olunan düsturların nə dərəcədə əhəmiyyətli olduğunu göstərir.

Beləliklə bütün qeyri-üzvi və üzvi kimyəvi birləşmələrdə ümumi və siqma *(σ)* rabitə saylarını qrafik formullardan istifadə etmədən riyazi üsulla hesablamaq artıq mümkündür.

Molekulun qrafik formulunda çoxüzlü həndəsi fiqur (tetraedr, heksaedr və

ya kub, oktaedr, dodekaedr, ikosaedr) olan kimyəvi birləşmələrdə siqma *(σ)* rabitə saylarının hesablanması növbəti sayımızda veriləcək.

## İstifadə edilmiş ədəbiyyat:


1. Salahov M.S., Bağmanov B.T., Abbasov Z.S., "Kimyəvi birləşmələrdə rabitə saylarının riyazi ifadəsi", "Pedaqoji universitet xəbərləri", "Bakı - № 5 - 2008", s. 12-17.
2. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Üzvi birləşmələrdə valentlik rabitələrinin hesablanması", "Kimya məktəbdə" jurnalı, 3 (23) 2008, s. 3-12.
3. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Kimyəvi birləşmələrdə rabitə saylarının riyazi ifadəsi", "Kimya məktəbdə" jurnalı 2 (22) 2008, s. 70-75.
4. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Reaksiyalar zamanı kimyəvi rabitə saylarının dəyişməsinin riyazi ifadəsi", "Kimya məktəbdə" jurnalı 4 (24) 2008, s. 34-40.
5. Салахов М.С., Багманов Б.Т., Аббасов З.С., «Математическое выражение количества связей в химических соединениях», «Актуальные проблемы гуманитарных и естественных наук», «Москва 2010», с. 41-44.

**М.М.Аббасов, З.С.Аббасов**

**Математическое выражение количества σ-сигма связей в химических соединениях**

**АННОТАЦИЯ**

Статья посвящена нахождению общего числа сигма *(σ)* связей наиболее используемых в общеобразовательных школах неорганических и органических соединений.

**M.M.Abbasov, Z.S.Abbasov**

**The mathematical determination of sigma bonds in chemical compounds**

**ANNOTATION**

The article is devoted to finding the total of σ-sigma bonds used by most elementary school of organic compounds.

**Açar sözlər:** siqma rabitə, qrafik formul, emprik formul, naftalin, antrasen

**Ключевые слова:** сигма связь, график формула, эмприческая формула, нафталин, антрацен

**Key words:** sigma bond, qrafic formula, empiric formula, naphtlene, anthrasene